## KİNO, TELE VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

**UOT 791-5**

**Gülşən Əliəkbər qızı Qafarova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: abduhallah@gmail.com**

# PSİXOLOJİ DRAM JANRININ "ŞAHZADƏSİ"

**Xülasə:** Psixoloji dram janrının ilk nümunələrindən olan "Şahzadə Klevskaya" romanı illər keçməsinə basmayaraq öz aktuallığını qoruyub saxlaya bilmişdir. Əsər dəfələrlə müxtəlif adlarla ekranlaşdırılıb. Müəllifin fikrinə görə ən uğurlu ekran işi 1961-ci ildə Jan Dellanın çəkdiyi "Şahzadə Klevskaya" filmidir.

**Açar sözlər:** psixoloji dram janrı, Madam de La Fayet, "Şahzadə Klevskaya", "Şahzadə de Montpanse", ekranlaşdırma

Psixoloji dram janrlı əsərlərdə (eləcə də filmlərdə) insan şəxsiyyətinin mühit və cəmiyyətlə qarşıdurması, konflikti ön planda olur. İnsanın şəxsiyyətini, xarakterini formalaşdıran 3D (duyğu, düşüncə, davranış) onun cəmiyyətdəki mövqeyinə də təsir edir. Obrazın mühitlə ziddiyyəti, daxili dünyasında baş verən təlatümlər, özünü dərk etmə cəhdləri, emosiyalarının ifadə şəkli psixoloji dram janrının aparıcı xüsusiyyətinə çevrilir ki, bu da süjet xəttinin mürəkkəb olmasına gətirib çıxarır. Yazıçı (ssenarist) oxucuya (tamaşaçıya) aparıcı obrazın duyğularını çatdırmaq, daxili dünyalarını açmaq, hisslərini təqdim etmək, başqaları ilə münasibətlərinin ziddiyyətini göstərmək istədiyi zaman bu janra müraciət edir.

Dramın alt janrı olan psixoloji dram janrı digər janrlara görə daha "gənc" hesab olunur. XVII əsrdə fransız yazıçılarının, əsasən də madam de La Fayetin (fr. Marie-Madeleine Pioche de La Vergne; Comtesse de La Fayette) əsərləri ilə başlayan bu janrı XVIII əsrdə Jan Jak Russo (fr. Jean-Jacques Rousseau) "sadəlik və təbiilik" tezisi ilə daha da məşhurlaşdırmışdır.

Madam de La Fayetin ilk psixoloji sevgi romanı 1678-ci ildə çap olunmuş "Şahzadə Klevskaya" (fr. La Princesse de Clèves) əsəridir. Ondan öncə müəllif 1662-ci ildə "Şahzadə de Montpanse" (fr. La Princesse de Montpensier) novellasını yazmış hər iki əsərini də anonim olaraq çap etdirmişdir. Madam de La Fayet bu əsərlərində tarixi hadisələrdən və real insanlardan bəhs etmiş olsa da, nə "Şahzadə de Montpanse" novellası, nə də "Şahzadə Klevskaya" psixoloji romanı tarixi-bioqrafik janr hesab edilmir. Belə ki, "Şahzadə de Montpanse" əsərində adı çəkilən insanların bir çoxunun real həyatda prototipləri olsa da, əsərdəki hekayələri müəllifin təxəyyülüdür və gerçəkləri əks etdirmir. Əsərdəki

məhəbbət üçbucağı tamamilə müəllifin uydurmasıdır. Baş qəhrəmanın prototipinin əsl adı Mari deyil, Rene, həyat yoldaşının adı isə Filip deyil, Fransua idi. Fransua de Montpanse əsərdəkinin əksinə, hersoq Anjuyskiyə sadiqliyi ilə tanınırdı. Eyni ilə "Şahzadə Klevskaya" romanının da demək olar ki, bütün qəhrəmanları tarixi şəxsiyyətlərdir. Baş qəhrəman – madmazel de Şartr (prototip olaraq Fransuaza de Roqan olduğu iddia edilsə də) isə uydurulmuş personajdır.

"Şahzadə de Montpanse" əsərində XVI əsrdə (1567-ci il) Fransız protestantları (kalvinistlər) ilə katoliklər arasında gedən dini qarşıdurmanın fonunda markiz de Mezerin gözəl qızı Marinin fırtınalı eşq hekayəsi izlənilir. Əri şahzadə de Montpansenin qısqanclıq qarışıq məhəbbəti, qraf de Şabanın fədakar sevgisi, hersoq de Qizin qürurlu eşqi və hersoq Anjuyskinin intriqa dolu marağı Marini seçim qarşısında qoyur. Şahzadə de Montpansenin qısqanclıqdan doğan inamsızlığına, qraf de Şabanın sevdiyi qadın üçün fədakarcasına "intiharı"na, hersoq de Qizin xəyanətinə Marinin qəlbi daha artıq tab gətirmir. Sevgi və qadınlıq borcu arasındakı yanlış seçimi ilə o hər şeyini itirmişdi: ən sadiq dostunu, ərinin ona olan hörmətini, məşuqunun məhəbbətini. Yaşamağının nə mənası vardı ki? Əsər 2010-cu ildə Fransalı rejissor Bertan Taverne (Bertrand Tavernier) tərəfindən ekranlaşdırılmış, bəzi səhnələri dəyişdirilmiş, dialoqlar artırılsa da, əsas süjet xətti qorunub saxlanılmışdır. Novellanın yayımlanmasından 5 əsr keçməsinə baxmayaraq, əsərdə qaldırılan problem hələ də aktualdır. Hələ də insanların bir çoxu hisslərini cilovlaya bilməmələrindən və məntiqlərinə görə yaşaya bilməməkdən əziyyət çəkirlər. Madam de La Fayet "Şahzadə de Montpanse" əsəri ilə "Şahzadə Klevskaya"ya zəmin hazırlamış, məhəbbət üçbucağını bu dəfə fərqli yöndən həll edərək, fransız nəsrinə yeni bir janr qazandırmışdır.

Müəllifin "Şahzadə Klevskaya" adlı psixoloji-sevgi romanı XVII əsr fransız nəsrinin zirvəsi, bestselleri hesab edilmiş, Stendal, Russo, Volter kimi tanınmış yazıçıların rəğbətini qazanmışdır. Müəllif, roman üzərində işə təxmin edildiyinə görə 1672-ci illərdə başlamış, əsər çap edildikdən sonra isə klassisizm estetikasına zidd yazılış tərzi ilə qəhrəmanların hiss və həyəcanlarının qeyri-təbii təsvir edildiyi irəli sürülərək, ciddi tənqid atəşinə tutulmuşdur. Uzun illər sonra əsər öz həqiqi dəyərini almış, bir çox rejissor tərəfindən ekranlaşdırılmışdır. İlk dəfə 1961-ci ildə Jan Koktonun (fr. Jean Maurice Eugène Clément Cocteau) ssenarisi əsasında Jan Dellanni (fr. Jean Delannoy) əsəri "Şahzadə Klevskaya" adı ilə ekranlaşdırmışdır. Rejissor Manuel de Oliveyr 1999-cu ildə "Məktub" ("A Carta" rej. Manoel Cândido Pinto de Oliveira ), Andjey Julavski 2000-ci ildə "Sədaqət" (La fidélité) adı ilə ekranlaşdırmışlar. Əsərdə qoyulan məhəbbət üçbucağının gözlənilməz sonluğu ekranlaşdırılmış bu filmlərin də sevilməsini təmin edən amillərdən biridir.

1961-ci ildə Jan Dellan əsərin motivləri əsasında eyni adlı filmi ekranlaşdırmış, lakin müəllifin əksinə olaraq əsərdə prototip kimi təqdim edilən obrazları öz gerçək isimləri ilə adlandırmışdır. Jan Dellan eyni zamanda əsərdəkinin əksinə olaraq tarixi faktların üzərində dayanmayaraq süjet xəttini şahzadə Klevskayanın üzərində qurmuşdur. Klevskayanı canlandıran aktrisa Marina Vladinin gözəlliyi, zərafəti kişilərin qeyri-ixtiyari ona aşiq olmalarına tamaşaçını inandıra bilir. Marina Vladinin Klevskayası o qədər təbii görünür ki, tamaşaçı onun əzab çəkdiyinə inanır, sevgisinə rəğmən sadiqliyinə pərəstiş edir. Məhəbbət üçbucağı olan süjet xətləri ilə müqayisə edilərkən filmin sonluğu tamaşaçı üçün gözlənilməz nəticələnir.

Qeyd edək ki, fransız kinosunun ulduzları Jan Mare və Marina Vladinin birlikdə ilk və son işləri "Şahzadə Klevskaya" filmidir. Hər iki aktyor onlara tapşırılan rolun öhdəsindən məharətlə gəlmişlər.

Jan Marenin canlandırdığı şahzadə Klevskiy hündür boyu, zadəganlığı ilə bütün saray əhalisinin sevimlisidir. Krala və həyat yoldaşına olan sadiqliyi ilə də daha çox rəğbət toplayır və sevilir. Bununla belə, həyat şahzadə Klevskayanın hörmətini qazansa da sevgisini qazana bilmir. Klevskaya ərinə sadiq olsa da, qəlbinə söz keçirə bilmir və onu aldatmamaq üçün də başqasını sevdiyini etiraf edir. Bu gözlənilməz etirafdan sarsılan qısqanc ər üçünsə yeganə təsəlli şahzadənin sədaqətidir. Öz qadınlıq borcunu layiqi ilə yerinə yetirən şahzadə heç bir halda nəfsinin istəklərinə uymur.

Filmin ən güclü səhnəsi heç şübhəsiz ki, bu etiraf səhnəsidir. Həm Jan Mare, həm də Marina Vladi bu səhnədə o qədər inandırıcı oynayırlar ki, tamaşaçı onların hisslərinin gerçəkliyinə inanır. Marinanın keçirdiyi utancaqlıq, qorxu hissi ilə Marenin keçirdiyi əzab, qısqanclıq, əsəb tamaşaçıda yüksək emosiyalar oyandırır. Bu etiraf səhnəsindən sonra tamaşaçı hadisələrin necə cərəyan edəcəyini maraqla gözləyir. Duyduğu etirafdan sarsılsa da Klevskinin alicənablığı, həyat yoldaşına olan sevgisi qəzəbinin önünə keçir. Belə bir münasibətə şahzadə Klevskaya da öz alicənablığı ilə cavab verərək ərinin ölümündən sonra da ona sədaqətini qoruyur.

Madam de La Fayetin bu möhtəşəm əsəri Jan Mare və Marina Vladinin oyunçuluğu ilə birləşərək sevgiyə, sədaqətə yeni bir anlam qazandırır.

## Ədəbiyyat siyahısı:

1. Пропп В.Я. Морфология волшебной сказки. М., 2001.
2. Гриб В.Р. Мадам де Лафайет // Гриб В.Р. Избранные работы. М., 1956. С. 303–355.
3. Гинзбург Л.Я. О психологической прозе. Л., 1971.
4. Забабурова Н.В. Творчество Мари де Лафайет. Ростов: Изд-во Ростов. ун-та, 1985.

**Гульшан Алиакбер кызы Гафарова**

## «КОРОЛЕВА» ЖАНРА ПСИХОЛОГИЧЕСКОЙ ДРАМЫ

**Резюме:** Один из первых образцов жанра психологической драмы – роман «Принцесса Клевская» сохранил свою актуальность, несмотря на то, что прошло много лет. Роман неоднократно экранизировался под разными названиями. Самой удачной экранизацией, по мнению автора, является фильм 1961 года “Принцесса Клевская”, снятый Жаном Деланнуа.

**Ключевые слова:** жанр психологической драмы, мадам де Лафайет, «Принцесса Клевская», «Принцесса де Монпансье», экранизация.

**Gulshan Aliakber gizi Gafarova**

## “THE QUEEN” OF THE GENRE OF PSYCHOLOGICAL DRAMA

**Summary:** One of the first examples of the genre of psychological drama – the novel “The Queen Klevskya” has kept its actuality even though many years have passed. The drama has been screened many times under different names. As for author, the most sucessful screening was the film “The Queen Klevskaya” in 1961 by Juan Della.

**Key words:** genre of psychological drama, Madam de La Fayet, “The Queen Klevskaya”, “Queen de Montpanse”, screening

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Əməkdar incəsənət xadimi, professor Əli Əmirli**